

**Əflatun BAXŞƏLİYEV**

## Mənə çatmadı

Bu dünyanın qeylü-qalı,
Sirri də mənə çatmadı.
Bax, göydən üç alma düşdü,
Biri də mənə çatmadı.

Bəzən sığal, bəzən yumruq,
Kimə hökm, kimə buyruq.
Kimlər üçün yağlı quyruq,
Dəri də mənə çatmadı.

Yenə kütə kündə getdi,
Bulud gəldi, gün də getdi.
Yalançılar öndə getdi,
Geri də mənə çatmadı.

Söykənib bir mütəkkəyə,
Dözmür dünya bu hikkəyə.
Kimsə yetişdi Məkkəyə,
Piri də mənə çatmadı.

Nadan çətin dərd daşıya,
İnsan gərək mərd yaşaya.
Günəşi qıydın naşıya,
Zəri də mənə çatmadı.

## Bir həsrət qalıb

Hicrana qatlaşıb həsrətə dözdüm,
Xəyal köhlənində daha çapmadım.
Sənli günlərimi bir sapa düzdüm,
Qırılıb əlimdən düşdü tapmadım.

Gözümdən könlümə yenə doldu çən,
Bir an sozalmadı alovum, odum.
Qafiyə axtarıb tapmayanda mən,
Olub şeirimə qafiyə adın.

Müqəssir kim oldu bu sevgidə kim,
Barı, qıyma, həsrət görüb sevinə.
Ərdən boşanmış qız, atılan sevgim,
Göndər onu gəlsin ata evinə.

Sənli xatirələr bulud tək dolub,
Qoyub yırğalaram dizimin üstə.
İndi səndən mənə bir həsrət qalıb,
Onu da saxlaram gözümün üstə.

## Varaqla məni

Ayrılıq yurdunun şahısan indi,
Gəl, öz sarayında qul saxla məni.
Sevgi səhrasında itirdin, gülüm,
Xəyal dünyasında soraqla məni.

Kimə qara keşiş qurubdur tələ,
Bəs hanı xan kərəm, hardadır lələ?
Eh nə görmüsən ki, sən məndə hələ,
Bir təzə dastanam, varaqla məni.

Xanımlar xanımı gözəllər xası,
Vəfa etibardı gözəl arxası.
Yatıbdı bəxtimin qaraçuxası,
Ağlayıb məni de, de, ağla məni.

Yeyilib geydiyim o dəmir çarıq,
Üst-başım toz torpaq, paltarım cırıq.
Elə dağ çəkib ki, mənə ayrılıq -
İndi kim tanıyar bu dağla məni?..

Ədəbiyyat qəzeti.- 2018.- 9 noyabr.- S.29.